# Azərbaycan–Türkiyə qardaşlığı örnəkdir

***Prezidentlər İlham Əliyev və Rəcəb Tayyib Ərdoğanın qarşılıqlı səfərləri həm Azərbaycanda, həm də Türkiyədə böyük coşqu ilə qarşılanır. Hər dəfə əlamətdar hadisələrdə iki dost və qardaş ölkə başçılarının bir-birinin yanında olmaları Türkiyə – Azərbaycan dostluğunun sarsılamazlığından xəbər verir. Türkiyədə dəniz üzərində inşa edilən nəhəng layihə – Rizə-Artvin Hava Limanının iki qardaş ölkə rəhbərlərinin iştirakı ilə açılışı Azərbaycan–Türkiyə münasibətlərinin ən yüksək səviyyədə olduğunu bir daha təsdiqləyir.***



Dövlət başçıları İlham Əliyev və Rəcəb Tayyib Ərdoğan arasında möhkəm dostluq təkcə iki ölkə arasında münasibətlərin inkişafına deyil, həmçinin Türk dünyasında əlaqələrin möhkəmləndirilməsinə xidmət edir. 2020-ci il sentyabrın 27-də Ermənistan ordusunun ölkəmizə qarşı başladığı müharibədə bunun şahidi olduq. Vətən müharibəsi zamanı hər gün, hər an Azərbaycanın yanında olduğunu nümayiş etdirən Türkiyə dövlətinin dəstəyi nəticəsində ölkəmiz işğalçı Ermənistan qüvvələrinin regiona müdaxilə etməsinə, öz çirkin niyyətlərini burada həyata keçirməsinə imkan vermədi.

Düşmən üzərində qazandığımız tarixi Qələbə münasibətilə keçirilən Zəfər paradında qardaş ölkə Prezidentinin dövlət başçımızla çiyin-çiyinə dayanması, işğaldan azad edilmiş ərazilərə ilk xarici dövlət başçısı kimi Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın səfəri, Füzuli Beynəlxalq Hava Limanının açılışında iştirakı, Zəngəzur dəhlizinin təməlqoyma mərasimində Prezident İlham Əliyevin yanında olması, tarixi əhəmiyyətə malik Şuşa Bəyannaməsinin imzalanması, bir daha təsdiqiləyir ki, Türkiyə–Azərbaycan dostluğu və qardaşlığı daimidir. Ən əsası isə bunun üçün tarixi, milli, etnik, bir sözlə, inkar olunmaz və ayrılmaz bağlar mövcuddur.

Müttəfiqlik haqqında Şuşa Bəyannaməsi Qars müqavilısinə, Dostluq və Əməkdaşlıq haqqında Müqaviləyə, Strateji Tərəfdaşlıq və Qarşılıqlı Yardım haqqında Müqaviləyə əsaslanaraq, Azərbaycan–Türkiyə münasibətlərini daha da möhkəmləndirdi. Bu, iki xalqın tarix, soykök, din, dil, mədəniyyət birliyinə söykəndiyini bir daha təsdiqlədi, ölkələrimiz arasında dostluq və qardaşlığın nümunəvi xarakterini bütün dünyaya nümayiş etdirdi.

İki ölkə arasında təkcə dövləti mənafelər deyil, qardaşlıq, dostluq, mehribanlıq, bir-birinə qarşı olan həddindən artıq isti münasibətlər Azərbaycan – Türkiyə əlaqələrində qırılmaz tellərin bariz təcəssümüdür. Bu dostluq əlaqələrini dünyanın tanınmış ictimai-siyasi xadimləri də yüksək qiymətləndirirlər.

Qardaş ölkələr arasındakı sarsılmaz birlik həyatın bütün sahələrində öz əksini tapır. Ulu öndər Heydər Əliyevin qanadlı ifadəsi kimi dilimizdə əzbər olan "bir millət, iki dövlət"in dostluğu əbədi və sarsılmazdır.

***Mehman İSMAYILOV,***
***politoloq***

Xalq qəzeti .- 2022.- 15 may.- S.10.